**Nərgiz Cavid qızı BABAYEVA**
Qərbi Kaspi Universiteti
E-mail: nargiz.javid.b@gmail.com

# CİNAYƏTKAR ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA FƏRDİ PSİXİKANIN ROLU

**Xülasə:** Məqalədə ən vacib və az öyrənilən mövzulardan biri olan psixi dəyişikliklərin insanın cinayətkar davranışına təsiri araşdırılır. Bu mövzunun az öyrənilməsinə baxmayaraq bir çox elm adamları psixi dəyişikliklərin cinayət davranışına əhəmiyyətli təsir göstərdiyini, bəzi hallarda isə qıcıqlandırıcı kimi çıxış etdiyini qeyd edirlər. Məqalədə əsas məqsəd – psixi dəyişikliklər, şəxsiyyətin cinayi davranışına təsir göstərə biləcək şərtlər və qeyri-sabit psixikaya malik insanlara tətbiq oluna biləcək bəzi profilaktik tədbirləri işıqlandırmaqdır.
**Açar sözlər***:* *şəxsiyyət, psixi anomaliyalar, cinayətkar davranış, qeyri-sabit davranış, profilaktika.*

**UOT:** 159.97
**DOİ:** 10.54414/nrma1234

## Giriş

*Mövzunun aktuallığı.* "Şəxsiyyət" anlayışı müəyyən bir tədqiqat sahəsinə tətbiq edilməklə xarakterizə olunur. Şəxsiyyət problemi ümumi bir xarakterə malik olsa da, bilavasitə bütün cəmiyyətə aiddir və bir çox elmlər tərəfindən öyrənilir, lakin hər bir elm öz mövzusu nöqteyi-nəzərindən öyrənir. Hüquq psixologiyası üçün idrakın obyekti: şəxsiyyətin xüsusi növü kimi - cinayətkarın şəxsiyyətidir. Bu anlayış şərtidir və xüsusilə nəzərə alınmalıdır.

Cinayətkarın şəxsiyyəti, onun həyat tərzinin bütün görünüşündə həlledici iz buraxan fəal varlıq kimi qiymətləndirilir. Şüurlu hərəkətlər edə bilməyən, öz hərəkətlərinə cavabdehlik daşıya bilməyən şəxs, onu şəxsiyyət kimi dəqiq səciyyələndirən zəruri xüsusiyyətlərdən məhrum olur. Cinayətkarın şəxsiyyəti də daxil olmaqla, hər bir insan digər fərdlərlə sosial münasibətləri inkişaf etdirir. İnsanın aktiv təbiəti sayəsində onun ətrafında ictimai münasibətlər inkişaf edir və beləliklə fərdlə cəmiyyət arasında əlaqə yaranır. Burada, ictimai münasibətlər sistemində cinayətkarın şəxsiyyətinə xas olan münasibətləri də görmək lazımdır.

Cinayətkarın şəxsiyyəti anlayışı çoxşaxəlidir və açıq şəkildə fənlərarası xarakter daşıyır. Çünki, o, təkcə psixoloqlar tərəfindən deyil, həm də prosessual və cinayət məcəlləsində, kriminalistika və məhkəmə ekspertizasına aid məsələlərin hazırlanmasında iştirak edən hüquqşünaslar tərəfindən də öyrənirlir. Hüquq psixologiyasında bu problem mərkəzi problemlərdən biridir.

## Əsas mətn

Cinayətkarın şəxsiyyəti dedikdə fərdin bu və ya digər cinayət əməlini törətməsini şərtləndirmiş tipoloji keyfiyyətlərinin və sosial-psixoloji xassələrinin məcmusu nəzərdə tutulur, insanın psixoloji və əxlaqi görünüşünü, davranışını şərtləndirən mühüm amil psixi dəyişikliklərdir [13].

Burada söhbət insanı anlaqlı vəziyyətdən məhrum etmədən onun sosiallaşmasını, normal əlaqələr və münasibətlərə yiyələnməsini, təhsil almasını xeyli çətinləşdirən və eyni zamanda qeyri-insani həyat tərzinə, hüquqa zidd əməllərin törədilməsinə köməklik edən sapmalardan gedir.

Psixi anomaliyalar hələ psixoz dərəcəsinə çatmamış sərhəd psixi dəyişiklikləridir, buna görə də bu sapmalardan əziyyət çəkən şəxslər cəmiyyətdə kifayət qədər rahat yaşaya bilərlər-özünü reallaşdıra, ailəyə, dostlara, işə malik ola bilərlər və yalnız mənfi amillərin təsiri ilə onların psixi dəyişiklikləri özünü göstərə və cəmiyyətə ziyan vura bilər. Müasir şəraiti, daha dəqiq desək, informasiyanın mənimsənilməsi və emalı üzrə insandan hər gün daha çox fəallıq tələb edən informasiya cəmiyyətinin əsrini nəzərə alsaq, gündən-günə insanlarda psixi gərginliyin səviyyəsi artır və bu da psixi cəhətdən qeyri-sabit şəxslərin reaksiyalarını kəskinləşdirir. Psixiatrlar psixi dəyişiklikləri sosial qeyri-sabitliyə səbəb olan genetik və sonradan qazanılmış xüsusiyyətlərin məcmusundan yaranan davamlı xarakterli anomaliyalar kimi müəyyən edirlər. Anlaqlı vəziyyəti istisna etmədən, psixi anomaliyalara daxildir:

psixopatiya, narkomaniya, xroniki alkoqolizm, yüngül debilitilik şəklində oliqofreniya, davamlı remissiya mərhələsində şizofreniya, mərkəzi sinir sisteminin zədələnməsi [12]. Psixi anomaliyaların təsiri aşağıdakılardan ibarətdir: konkret vəziyyətlərin təsirinə qarşı müqavimətin azaldılması, daxili nəzarət mexanizminin qismən aradan qaldırılması, şəxsiyyətin sosial faydalı xüsusiyyətlərinin inkişafında maneələrin yaradılması, düşünülməmiş hərəkətlərin həyata keçirilməsinin asanlaşdırılması. Psixi dəyişikliklərdə cinayətkar davranışınışın əsas mexanizmləri və müvafiq olaraq onların rəhbərliyi qorunur. Cinayətkarın şəxsiyyətinin strukturunda psixi dəyişikliklərlə yanaşı hərislik, parazitizmə meyl, cəzaya məhkum olmamağa əminlik və s. kimi hallar da müşahidə olunur. Bu keyfiyyətlər, daha sonra kriminogen bir vəziyyət meydana gətirərək psixi pozuntularla kompleks birləşmələr yarada bilər [4,s.201].

Psixi dəyişikliklər şəxsiyyətin daxili aləminin strukturlarının təhrif edilməsinə, onun şüurunda adətlərin, dəyərlərin və motivasion qurğuların müəyyən edilmiş norma və əhəmiyyətinin dəyişməsinə səbəb olur. Beləliklə, şəxsiyyətin kompensasiya edilməsinə yönəldilmiş antisosial və ictimai-təhlükəli mövcudluq üsulunu, subyektin cəmiyyətdə özünü təsdiqetmə hesabına digər insanların vasitəsi ilə axtarışına meyllər yaranır. Psixi pozuntusu olan insan təkcə xəstə deyil, həm də həyatı boyu sosial cəhətdən dəyişikliyə uğrayan insandır.

Zehni fəaliyyətin dəyişiklikləri cinayətkarın şəxsiyyətinin formalaşmasına yalnız müəyyən əlverişsiz sosial şəraitdə kömək edə bilər, bunlardan aşağıdakı amilləri ayırd etmək olar:

- Əlverişsiz mühit və ictimai faydalı əlaqələrin olmaması
- Sosial nəzarətin və ailə tərbiyəsinin aşağı səviyyədə olması
- Şüurun inkişafında problemlər və təhsil səviyyəsinin aşağı olması
- Təlqin edilmiş əxlaqi və mənəvi dəyərlərin olmaması
- Alçaldılma, cəmiyyət tərəfindən şəxsiyyətə qarşı mənfi münasibət (məktəb, institut, iş, ətraf mühit, həmyaşıdlar, qohumlar və s.).

Bütün bu amillər cəmiyyətin əleyhinə olan həyat tərzi, mənfi şəxsiyyət xüsusiyyətləri və kriminoloji cəhətdən əhəmiyyətli olan psixi dəyişikliklərin yaranmasına səbəb ola bilər. Bununla belə, yadda saxlamaq lazımdır ki, "hər kəs" üçün əlverişli olan sosial şərait müəyyən bir psixi cəhətdən anormal şəxsiyyətə mənfi təsir göstərə bilər, buna görə də, bu cür şəxsiyyətlərin davranışının öyrənilməsi və təhlili yüksək bilik və təcrübəyə malik ekspertlər qrupu tərəfindən həyata keçirilməlidir, əks halda bu fəaliyyət faydasız və mənasız olmaqla kifayətlənməyib, şəxsiyyətin ümumi vəziyyətini daha da ağırlaşdıra bilər [4,s.58].

Psixi dəyişikliklərin ictimai təhlükəli hərəkətlər üçün qıcıqlandırıcı rolunu oynaya biləcəyi və hüquqa zidd əhəmiyyətə malik ola biləcəyinə baxmayaraq, onlar cinayətkar davranışa səbəb olmur və onlardan əziyyət çəkən şəxslər isə heç də cinayətkar olmağa məhkum deyillər. Bu dəyişikliklər daxili disbalansdır, insanın bilavasitə qarşılaşdığı subyektiv şərait, əlverişsiz sosial şəraitdə antisosial hərəkətlərin yarana və baş verə biləcəyi fondur. Psixi dəyişikliklər cinayətin törədilməsini tam izah edə bilməz. Hər hansı sağlam düşüncəli insanın davranışında, o cümlədən psixikasında anormallıqlar olanlarda patoloji əlamətlər həlledici olmur və insan şüurunun sosial məzmunu ilə birlikdə meydana çıxır. Cinayət davranışının səbəbləri arasında şəxsin mənfi şəxsiyyət keyfiyyətləri, yetişmə şəraiti və şəxsiyyətin bilavasitə əhatə dairəsi aparıcı yer tutur [10,s.79].

Cinayətkar şəxsin davranışına təsir edən və onu neqativ istiqamətə yönəldən bioloji amillər də mövcuddur. İnsan davranışına mənfi təsir göstərən bioloji amillərə aşağıdakı cəhətlər aid edilir:

- bioloji tələbatların patalogiyası bir çox hallarda seksual pozğunluğa, cinsi cinayətkarlığa səbəb olur;
- əsəb-psixi xəstəliklər (psixopatiya, nevrosteniya və s.) onlar sinir sistemində oyanıqlığı gücləndirir, müəyyən qıcıqlayıcılara qeyri-adekvat reaksiya verilməsinə səbəb olur, nəticədə insanın öz hərəkətləri, rəftar və davranışı üzərində sosial nəzarəti çətinləşdirir, bir sıra hallarda qəflətən baş verən cinayətlərin törənməsinə səbəb olur;
- psixofizioloji gərginliyin artıq olması, konflikt şəraitinin yaranması, ətraf mühitin kimyəvi tərkibinin dəyişilməsi və s.

Bütün bu bioloji amillər, əlbəttə cinayi davranışın baş verməsinə təsir edir. Lakin nəzərdən qaçırmaq olmaz ki, cinayi davranışın

baş verməsini şərtləndirən amillər içərisində insanların zəruri tələbat və ehtiyaclarının ödənilməməsi və onun təmin olunması ilə bağlı çətinliklər də mühüm yer tutur [1]. Kriminoloqların səlahiyyəti kimi kompleks psixiatrik tədqiqatların aparılması, insanın cinayət davranışının öyrənilməsi, mübarizə təcrübəsi və azaldılması üçün vacibdir.

Beləliklə, konkret cinayətin törədilməsi fərdin cəmiyyət tərəfindən qəbul edilmiş mənəvi-psixoloji xüsusiyyətlərdən və kriminogen vəziyyəti formalaşdıran xarici obyektiv şəraitdən fərqli olan əlverişsiz həyat şəraitinin təsiri altında formalaşan qarşılıqlı əlaqənin nəticəsidir. Şəxsiyyətin mənəvi formalaşması üçün əlverişsiz şərait səviyyəsində konkret şəxs tərəfindən cinayətin törədilməsi ehtimalı kimi qəbul edilən ilkin şərtlər yaradılır. Konkret vəziyyət səviyyəsində şəxsin kriminogen motivasiyası reallıqda gerçəkləşir [3]. Motivasiya məsələsinə ayrıca diqqət yetirmək lazımdır. Fizioloji səviyyədə motivasiya-əsas ehtiyacların ödənilməsinə yönəldilmiş reaksiyaların seçimidir, məsələn: özünü müdafiə etmə, nəslin davam etdirilməsi, qida tələbatının ödənilməsi.

V.V.Quldanın apardığı tədqiqatlar göstərdi ki, subyektin cinayətkar davranışında onların şəxsi mənası praktiki olaraq dərk edilmiş davranışla bağlı deyil və mexaniki reaksiya kimi çıxış edir. Müvafiq olaraq, məcmuda motiv cinayət törətmiş şəxsin uşaqlıqdan cinayət törətdiyi ana qədər formalaşmış bütün şəxsi keyfiyyətləridir. Faktla bağlı, cinayət davranışı subyekti bütövlükdə bir şəxs kimi əks etdirir və hətta fizioloji səviyyədə şüursuz davranış onu sonrakı məsuliyyətdən azad etmir, çünki sosial müstəvidə subyekt hələ də öz hərəkətlərinin qanunsuzluğunu dərk edir [5,s.126]. Affektiv motivasiyaya səbəb ola biləcək sosial amillər:

- Ətrafdakı insanların gözlənilməz davranışı və yeni, sürətlə inkişaf edən vəziyyətin olması
- Təsadüfilik və ciddi nizam-intizamın olmaması
- Seçimlərdə məhdudluğun olması (məsələn: ikisindən biri)
- Münaqişələr.

Davranışlarında psixi dəyişiklikləri olan şəxslər affekt vəziyyətini normal psixikası olan subyektdən fərqli olaraq yaşayırlar. Bu, artan həyəcanlılıq və affektiv vəziyyətin kəskinləşməsi, çox vaxt qəddarlıq, aqressivlik və vandalizm ilə xarakterizə olunan hərəkətlərlə bağlıdır [10,s. 214]. Bir qayda olaraq, motiv-impulsivdir və onda məqsədlər, obyektlər, üsullar və cinayət hərəkətinin planlaşdırılması yoxdur. Cinayət törətmək niyyəti affektiv vəziyyət anında yaranır, bu anda cinayətkarın cinayət törətmə ehtimalı və məqsədini təmin edə bilən subyektin bilavasitə mövcudluğu haqqında təsəvvürü həlledici rol oynayır. Bir insanın cinayi davranışı-təhsil səviyyəsinin aşağı olması, mədəniyyət və sosiallaşmanın zəif olması ilə sıx bağlıdır, buna görə də erkən uşaqlıqdan hüquqa zidd davranışın qarşısını almaq lazımdır [2].

Uşaq və yeniyetmələrdə psixi anomaliyaların formalaşmasının erkən yaşlarda qarşısının alınması üsullarına ehtiyac var. Gənc yaşda psixi dəyişikliklərin müəyyən edilməsinə, psixi dəyişikliklərin fəaliyyətində mövcud sapmaları kompensasiya etmək mexanizmini stimullaşdırmaqla yanaşı məktəblərdə, dərnəklərdə, müəssisələrdə və institutlarda psixoloji tədbirlərin keçirilməsi, hətta terapevtik tədbirlərin istifadəsinə lazımi diqqət yetirilməlidir. Profilaktik tədbirlər, aşağıdakı tədbirlərlə kompleks şəkildə və ya ayrılıqda nəzərdən keçirilə bilər:

- Sosial mühitin yaxşılaşdırılması, şəxsiyyətin fərdi psixi vəziyyətinə mənfi təsir göstərə biləcək amillərin aradan qaldırılması
- Şəxsiyyətin sosial yönümlülüyündə müşahidə və yardım-işə düzəlmədə yardım, variantların seçilməsi və asudə vaxtın keçirilməsinin təşkili
- Maarifləndirici və profilaktik tədbirlər, psixoloqla ünsiyyət, əxlaqi tərbiyə
- Əlverişli həyat şəraitinin yaradılması
- Lazım gələrsə, tibbi xarakterli tədbirlərin tətbiqi.

Bu tədbirlər məktəb, ailə və yaxın qohumlar üçün tövsiyə xarakterili ola bilər ki, bu da mikrososial mühitin yaxşılaşdırılması üzrə tədbirləri gələcəkdə şəxsiyyətin sosiallaşmasını, kritik vəziyyətlərdə oriyentasiyanı əhəmiyyətli dərəcədə asanlaşdıracaq və müvafiq olaraq cəmiyyətdə kriminogen durumu azaldacaq, ümumilikdə cinayətlərin sayını azaldacaq zəruri maraqların, meyllərin, dəyərlərin yaradılması üzrə məsləhətlər əks olunacaq [15].

Cinayət davranışının ən mühüm determinantlarından biri də ailə mühitidir. Ailə həmişə nəsillərin davamlılığını təmin etmək, uşaqların

sosiallaşmasına kömək etmək və onları cəmiyyətə tanıtmaq üçün yaradılmış əsas sosial institutlardan biri olmuşdur. Fərddə antisosial meyllərin formalaşmasına məhz ailənin psixoloji mikroiqlimi böyük təsir göstərir. Tədqiqatların göstərdiyi kimi, əlverişsiz ailə mühiti müəyyən bir şəxs tərəfindən cinayət əməllərinin törədilməsinin əsas səbəblərindən biridir, xüsusən də, yetkinlik yaşına çatmayanların cinayət işlərində [8].

Cinayətkarın şəxsiyyəti həmişə kriminal psixologiyanın əsas problemlərindən biri olmuşdur və cinayətkarlığın səbəbləri ilə mübarizədə şəxsiyyətin hansı baxışa riayət etməsindən asılıdır: əgər cinayətkar davranışının səbəbləri və ya cinayət törətməyə meyllilik bioloji xətlə - genetik olaraq miras qalırsa, onda görülən əks tədbirlər insanı cinayət niyyəti və meylləri ilə doğulmamış, lakin onları qeyri-funksional pozğunluq nəticəsində əldə edən şəxs hesab etdiyimizdən tamamilə fərqli xarakter daşımalıdır.

Elm bu günə kimi, aparılan araşdırmalarda təsdiq etmişdir ki, insan doğulduğu andan tam hüquqlu, formalaşmış şəxsiyyət olmur. O, ictimai həyatı prosesində inkişaf edir və şəxsiyyətin formalaşması cəmiyyətdən kənarda mümkün olmur. Əxlaqi formalaşma prosesində insan müxtəlif əxlaqi baxış və dəyərlərin, fərdi psixoloji xüsusiyyətlərin bütöv bir toplusunu əldə edir. Eyni proses cinayətkarın mənfi mənəvi təsir sferasında formalaşan şəxsiyyətinə də aiddir. V.E. Eminovun qeyd etdiyi kimi məhz cinayətkarın şəxsiyyəti və onun formalaşması cinayət davranışında əsas həlqənin - yəni cinayətin səbəblərinin daşıyıcısıdır [16].

İnsan biososial sistemdir. Şəxsiyyətin bioloji - təbii başlanğıcı, emosiyaları, xarakter xüsusiyyətləri, sinir sisteminin xüsusiyyətləri, xarici stimullara (situasiyalara) reaksiyaları, temperamenti, intellektual və zehni qabiliyyətləri, yaddaş və s. kimi xüsusiyyətləri sosial cəhətdən sıx şəkildə iç - içədir. Xarici mühitlə qarşılıqlı əlaqədə olan insanın genetik kodu geniş inkişaf yolu alır ki, bu da əsasən müəyyən bir fərdin həyatı və fəaliyyəti, onun tərbiyəsi, təlimi və sosial təcrübəsi ilə müəyyən edilir. Mövcud əlverişsiz irsi əlamətlər bəzi hallarda zərərsizləşdirilə, digər hallarda isə kriminal inkişaf yönümü ala bilər [17].

Bu baxımdan professor E.E.Sapoqovun fikri ilə razılaşmamaq mümkün deyil. Sapoqov qeyd edir ki, insanın bir çox bioloji xüsusiyyətləri həyat şəraitinin əlverişli dəyişməsi ilə sosial faydalı istiqamətə çevrilir və əksinə əlverişsiz sosial mühit müəyyən şərtlər altında genetik - irsi mənfi keyfiyyətlərin möhkəmlənməsinə və inkişafına köməklik edir, bu hallar isə kriminogen nəticələrə səbəb ola bilər.

Şəxsiyyətin formalaşması prosesində bioloji keyfiyyətlərdən cins, yaş, fiziki və psixi sağlamlıq vəziyyəti, həmçinin patoloji sapmaların olması mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətin formalaşmasına ən böyük təsir göstərən - yaş xüsusiyyətləridir. Müxtəlif yaş mərhələlərində sosial mühitin şəxsiyyətə təsiri eyni deyil. Belə ki, erkən yaşda sinir sisteminin yetişməməsi, bir çox psixi təzahürlərə orqanizmin hazırlanmaması, ətraf gerçəkliyin gənc yaşlarda qavranılmasının xüsusiyyətləri, yüksək emosionallıq və əlverişsiz şəraitdə (yoxsulluq, aclıq, işin olmaması və s.) mümkün nəticələri real qiymətləndirmək qabiliyyətinin olmaması - cinayətlərin törədilməsinə səbəb ola bilər [7].

Yaş artdıqca, müəyyən bir insanın davranış reaksiyasında sosial amillər getdikcə daha çox rol oynayır. Antisosial davranışdan danışsaq, bu halda şəxsiyyətin formalaşmasına kriminogen təsiri ilk növbədə sosial nəzarətin və ailə tərbiyyəsinin aşağı səviyyədə olması, ictimai mühit və faydalı əlaqələrin olmaması, şüurun inkişafında problemlər və təhsil səviyyəsinin aşağı olması göstərilir. Bütövlükdə, belə bir mövqe: İ.S. Kon, S.I. Levikov və başqa müəlliflərin əsərlərində geniş elmi təstiqini tapmışdır.

Bioloji xarakterli ehtiyaclar cinayətkar davranışa səbəb olmur. İnsanın qida, sığınacaq, geyim və s. ehtiyacları davranışın son məqsədini müəyyən edə bilər, lakin ona nail olmaq üçün vasitə ola bilməz. Cinayətkar davranışa səbəb yalnız bu ehtiyacları ödəmək üçün vasitələr ola bilər (məqsədlər deyil), lakin məlum olduğu kimi onlar sosial mənşəyə malik olan fərdin həyat oriyentasiyası ilə müəyyən edilir [9]

İnsan davranışına - fəaliyyətin məqsəd və motivasion əsasları ilə yanaşı iradə, yaradıcılıq və emosional sahələr də daxil edilir. Davranış reaksiyasının fərdi xüsusiyyətləri üçün insan biologiyasının xüsusiyyətləri, yəni elementar davranış reaksiyalarının təzahürü ilə bağlı neyrodinamik proseslər mühüm əhəmiyyət kəsb edir. Lakin, hətta onlar da xarici mühitlə,

çoxkanallı əlaqələr vasitəsilə və sosial şərtlərlə vasitəçilik edirlər [11].

Bəzi elm adamları bioloji amillərin özlüyündə cinayətkar davranışa səbəb ola biləcəyini, bu cür davranışa meylliliyin bioloji olaraq təyin olunduğunu və irsi ola biləcəyini dəstəkləyərək, cinayətkarların ümumi kütləsində psixi pozğunluğu olan insanların çox olduğunu qeyd edirlər.

Araşdırmalar göstərir ki, cinayətkarlar, xüsusən də zorakı xarakterli cinayət törədənlər arasında psixi anomaliyaları olan insanların nisbəti yüksəkdir (30%-ə qədər). Psixologiyanın, psixofiziologiyanın, psixiatriyanın müddəaları, bəzi kriminoloji məlumatlar belə düşünməyə əsas verir ki, istənilən mənşəli psixi fəaliyyətin zəifləməsi və ya təhrif edilməsi əsəbilik, aqressivlik, qəddarlıq kimi xarakterik xüsusiyyətlərin yaranmasına və inkişafına köməklik edir və eyni zamanda iradi proseslərin azalmasına, təsirlərin artmasına, nəzarət mexanizmlərinin zəifləməsinə gətirib çıxarır. Bu xüsusiyyətlər fərdin normal sosiallaşmasına mane olur və deqradasiyaya gətirib çıxarır. Nəticə etibarilə, müəyyən fəaliyyət növlərinə və ümumilikdə əmək fəaliyyətinə mane olur ki, bu da hüquqa zidd əməllərin törədilməsi və antisosial həyat tərzinin aparılması ehtimalını artırır. Ümumi psixi gərginlik emosional-stress pozuntularının, psixi dezadaptasiya hallarının artması ilə xarakterizə olunan müasir şəraitdə bu amillərin əhəmiyyətini artırır [6].

Lakin, bu o demək deyil ki, kriminal davranışa psixi anomaliyalar səbəb olur. Birincisi - cinayətkarlar arasında belə anomaliyaları olan subyektlər çoxluq təşkil etmir. İkincisi - hətta müəyyən bir şəxsdə psixi anomaliyaların olması heç də onun hüquqa zidd davranışında kriminogen rol oynadığını göstərmir. Üçüncüsü - bir çox empirik tədqiqatlarda sübut olunduğu kimi, cinayətin törədilməsini əvvəlcədən müəyyən edən psixikanın anomaliyası deyil - onun kriminogen şəxsiyyət xüsusiyyətlərinin yaranmasına səbəb olan təhsil, şəxsiyyətin formalaşması üçün əlverişsiz şəraitdir. Əlbəttə ki, bu cür anomaliyalar onların yaranmasına və inkişafına, eləcə də, hüquqa zidd davranışına gətirib çıxara bilər, lakin bütövlükdə bu davranış müəyyən edilməyən bir şərt kimidir [14,s.67].

Psixi anomaliyalarar fərdə təsir göstərə bilsə də, cinayətkar davranışının motivlərini əks etdirmir. Cinayətkarlar arasında ən çox rast gələnən psixi anomaliyalar alkoqolizm və psixopatiyadır. Məsələn, psixopatiyanın zorakı cinayətə səbəb olan amillərdən biri olduğu müəyyən edilmişdir. Eyni zamanda, psixopatların müvəffəqiyyətlə işlədikləri və bir çox digər vəzifələri yerinə yetirdikləri çoxdan məlumdur. Psixopatların cinayət törətməsinin səbəblərinin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, bütün hallarda psixopatların şəxsiyyətinin mənəvi formalaşması üçün əlverişsiz şərait həlledici rol oynamışdır [14,s.118].

**Nəticə**

Qeyd edilənlər belə nəticəyə gəlməyə əsas verir ki, psixi anomaliyaları olan şəxslərin cinayətkar davranışının profilaktikası və qarşısının alınması kompleks və razılaşdırılmış işdir, onun uğurlu fəaliyyəti üçün səhiyyə orqanlarının, hüquq-mühafizə orqanlarının və bilavasitə cəmiyyətin özü iştirak etməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı, 2012. – 977 səh..
2. Аванесов, Г.А. 10 глав о мотивации и мотивах. Через призму науки криминологии / Г.А. Аванесов.-М.:Юнити-Дана, 2015. – 303с.
3. Ананич, В. А. Введение в криминологию: лекции / В. А. Ананич. – Минск: Академия МВД, 2014.-159 с.
4. Васильев В. Л. Юридическая психология. -С.П.,2000.
5. Гульдан В.В. Криминальная патопсихология. М.: Наука, 1991. 248 с.
6. Журавель, Е. Г. Психология личности в правоохранительной деятельности / Е. Г. Журавель // Юридическая психология. – 2010. – №1. – С. 4-10.
7. Зейгарник, Б. В. Очерки по психологии аномального развития личности / Б. В. Зейгарник, Б. С. Братусь. – М.: МГУ, 1980. – 157 с.
8. Иващенко Н.П. Совершенствовать предупредительную деятельность в сфере семьи-микрогруппы как объекта криминологического исследования // Общество и право. 2008. № 3. С. 70 - 73.
9. Криминология / под ред. В.Н. Бурлакова, М.Н. Кропачева – СПб.: Питер. – 2002. – 422 с.

10. Криминология и предупреждение преступлений. Учебник.-М.: Юрайт, 2015.- 352 с.
11. Леонтьев, А. Н. Потребности, мотивы и эмоции / А. Н. Леонтьев. – М.: Издво МГУ, 1971. – 40 с.
12. Личность преступника: Методы изучения и проблемы воздействия.-М., 1998.
13. Смирнов, А. М. Латентная преступность в России: учебное пособие / Смирнов А. М. – Москва: Юрлитинформ, 2013. – 179 с.
14. Торвальд, Ю. Век криминалистики / Ю. Торвальд. – М.: Прогресс – 1991. – 335 с.
15. Четвериков, В. С. Криминология и профилактика преступлений / В.С. Четвериков. -М.: Форум, Инфра-М, 2014.- 128 с.
16. Эминов В.Е., Личность преступника и ее формирование // Актуальные проблемы российского права. 2015. № 1. С. 107 - 112.
17. Howlett, J. The violent criminal apprehension program: A progress report. / J. Howlett, R. Hanfland, R. Ressler. // FBI Law Enforcement Bulletin. – 1986. – V. 55 – P. 14-22.

**Наргиз Джавид кызы БАБАЕВА**
*Западно-Каспийский Университет*
E-mail: nargiz.javid.b@gmail.com

## РОЛЬ ИНДИВИДУАЛЬНОЙ ПСИХИКИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ПРЕСТУПНИКА

**Резюме:** В данной статье рассматривается влияние психических расстройств на преступное поведение человека, которая является одной из самых важных и малоизученных тем. Хотя эта тема мало изучена, многие ученые отмечают, что психические изменения оказывают существенное влияние на преступное поведение, а в ряде случаев действуют как спусковой крючок. Основная цель статьи - пролить свет на психические изменения, условия, которые могут повлиять на преступное поведение личности и некоторые профилактические меры, которые можно применять к лицам с нестабильной психикой.
**Ключевые слова:** *личность, психические аномалии, преступное поведение, неустойчивое поведение, профилактика.*

**Nargiz Javid BABAYEVA**
*Western Caspian University*
E-mail: nargiz.javid.b@gmail.com

## THE ROLE OF THE INDIVIDUAL PSYCHE IN THE FORMATION OF A CRIMINAL PERSONALITY

**Summary:** This article deals with an impact of mental disorders on human criminal behavior, which is one of the most important and understudied topics. Although this topic is little studied, lots of scientists note that mental changes have a significant impact on criminal behavior, and in some cases act as irritants. The main purpose of this article is to highlight mental changes and conditions that can affect the person's criminal behavior and some preventive measures that can be applied to people with unstable psyche.
**Keywords:** *personality, mental anomalies, criminal behavior, unstable behavior, prevention.*

**Daxil olub:** 12. 07. 2022